İqtisadiyyat.- 2023.- 18-24 may.- S.8.



# Bayram Bayramov (1918-1994)

***Görkəmli nasir, Azərbaycanın Xalq yazıçısı Bayram Salman oğlu Bayramov 1918-ci il dekabrın 11-də Cavanşir qəzasının Şıxavənd kəndində (indiki Ağdam rayonunun Əlimədədli kəndi) ziyalı ailəsində anadan olmuşdur. Yeddiillik kənd məktəbini bitirib Ağdam Pedaqoji Texnikumunda təhsilini davam etdirmişdir (1934-1938).***

Tərtər rayonundakı Qusanlı kənd natamam orta məktəbində müəllim, Müsəlmanlar kəndində natamam orta məktəbin tədris hissə müdiri, Xoruzlu kənd yeddiillik məktəbində məktəb müdiri işləmişdir. Böyük Vətən müharibəsində Mozdok uğrunda döyüşlərdə iştirak etmiş, ağır yaralanmışdır (1942). Hərbi xəstəxanada sağaldıqdan sonra altı ay Yevlax rayonunun Qoyunbinəsi kənd yeddiillik məktəbində müdirlik etmişdir. 1943-cü ilin aprelində yenidən Sovet Ordusu sıralarında qulluq etmişdir.

Tərxis olunub doğma kəndlərinə qayıdarkən burada pedaqoji fəaliyyətini davam etdirmişdir: Yeddiillik məktəbin müəllimi işləmişdir. 1945-1950-ci illərdə ADU-nun Filologiya fakültəsində təhsil almışdır. Sonra N.K.Krupskaya adına kitabxanaçılıq texnikumunda müəllim, radionun ədəbi dram verilişləri redaksiyasında məsul redaktor, "Azərbaycan" jurnalı redaksiyasında ədəbi işçi (1958-1960), Azərbaycan Yazıçılar İttifaqında nəsr üzrə məsləhətçi (1960-1963) işləmişdir. Bir müddət yenə bütün qüvvəsi ilə yaradıcılıqla məşğul olmuşdur. **Dövlətnəşrkomda sədr müavini kimi çalışmışdır (1966-1971). Qarabağa Xalq Yardımı Komitəsinin sədri vəzifəsində işləmişdir (1989-cu ildən). Azərbaycan Yazıçılar Birliyi Şurasının üzvü**



**seçilmişdir (1991). Fəal ictimaiyyətçi, Azərbaycan KP 26 Bakı komissarı rayon Partiya Komitəsinin büro üzvü (1960), Bakı şəhər Sovetinin (1961, 8-ci çağırış) deputatı və rayon Sovetinin (1959, 7-ci çağırış), Müstəqil Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. "Şərəf nişanı" ordeni, "Xalqlar dostluğu" ordeni, "Böyük Vətən müharibəsi" ordeni, "Qırmızı əmək bayrağı" ordeni, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı və medallarla təltif edilmişdir. 1954-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan SSR Xalq yazıçısı (1984), Azərbaycan SSR dövlət mükafatı laureatı (1990), Azərbaycan Respublikası Ali Sovetinin deputatı (1990) olmuşdur. Əsərləri SSRİ-də, eyni zamanda xarici ölkələrdə tərcümə və nəşr olunmuşdur.**

Bayram Bayramov bədii yaradıcılığa 1950-ci ildə "Azərbaycan gəncləri" qəzetində çıxan "Körpü" adlı ilk hekayəsi ilə başlamışdır. Ədibin ilk povesti olan "Tək adam" 1954-cü ildə, ikinci povesti olan "Müqəddəs vəzifə" 1955-ci ildə qələmə alınıb. Müəllifin 1960-cı ildə çap olunan **"Gördüyümüz günlər", "Mən ki gözəl deyildim..." və "Sənsiz"** povestlərindəki hadisələr Böyük Vətən müharibəsi illərində Bakıda cərəyan edir.

**O, 1957-ci ildə qələmə aldığı "Onun gözləri", 1962-ci ildə yazdığı "Sevirsə qayıdacaq" povestlərində əxlaqi-mənəvi məsələlərə toxunmuşdur. Nasirin 60-cı illərdə qələmə aldığı povestlərindən biri olan "Qoz ağacı"da köhnə adət-ənənə, vaxtı keçmiş əxlaq normaları, "atalar və oğullar" problemindəki mühafizəkarlıq əleyhinə yazılmış əsərdir.**

Yazıçı **"Sərinlik"** povestindəki Firəngiz surətində Azərbaycan nəsrinin qadın surətlərinə münasibətdəki qırx illik təcrübəsini ümumiləşdirmişdir. Yazıçı həmçinin "Oğul həsrəti" əsərində Azərbaycan qadınlarının Böyük Vətən müharibəsində iştirakından bəhs edir.

1967-ci ildə çapdan çıxan **"Üç gün, üç gecə"** povestində B.Bayramov Azərbaycan nəsrinin müharibə ilə bağlı ənənələrini davam etdirmişdir.

Yazıçının 70-ci illərdə qələmə aldığı **"Qaşsız üzük"** əsəri on bir hekayədən ibarətdir. Yazıçı **"Oğul həsrəti" və "Sarı baba"** povestlərində Böyük Vətən müharibəsi dövrünün hadisələrini diqqət mərkəzinə çəkir.

Bayram Bayramovun **"Karvan yolu"** epopeyasında görkəmli yazıçı-demokrat Cəlil Məmmədquluzadənin həyatına müraciət edilmişdir.

O, 1994-cü il noyabrın 9-da Bakıda vəfat etmiş, II Fəxri Xiyabanda dəfn olunmuşdur.